BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2015

**UOT 5720 01**

# DEMOKRATİK MƏTBUAT AZƏRBAYCANIN İCTİMAİ FİKİR MÜSTƏVİSİNDƏ

**E.F.RÖVŞƏNOVA**
***Bakı Dövlət Universiteti***
***sevcan@mail.ru***

*Məqalədə Azərbaycanda demokratik mətbuat ideyasının meydana gəlməsini şərtləndirən amillər, bu ideyanın gerçəkləşməsi yolları təhlilə cəlb edilir. Xüsusi olaraq Azərbaycanın ictimai xadimləri və klassik publisistlərinin əsərlərində qoyulan demokratik mətbuat məsələləri məqalədə təhlil olunur. Bu sırada H.Zərdabi, M.F.Axundov, XX əsrin əvvəllərinin ziyalıları – M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli və b. ictimai xadimlərin bu mövzuda əsərləri ətrafında geniş söhbət açılır. Məqalədə həmçinin 1980-ci illərin sonlarından xüsusi şəkildə ortaya çıxan və müstəqilliyimizin ilkin çağlarından gerçəkləşən demokratik mətbuat ideyası ətrafında ayrıca söhbət açılır.*

**Açar sözlər:** demokratik mətbuat, milli mətbuat, azad söz, kontekst, publisistika

Azərbaycan xalqının azadlığa, özgürlüyə, müstəqil düşüncəyə və ümumiyyətlə, fikrini sərbəst ifadə etməyə meyli həmişə güclü olmuşdur. Milli dastanlarımızın, qədim nağıllarımızın və bütövlükdə, şifahi xalq ədəbiyyatımızın ruhunda insanın müstəqil özünüifadəsi ayrıca bir sahə təşkil edir. Yazılı ədəbiyyatımızın qədim mənbələrinə diqqətlə yanaşsaq bu mövzunun çox maraqlı nümunələri ilə rastlaşacağıq. Böyük Nizami Gəncəvinin yaradıcılığındakı çoxçeşidli motivlər sırasında azad söz ayrıca bir kontekst təşkil edir. Şairin "Zalım padşahla zahidin dastanı" əsərinin əsas ideyasını insanın düşündüyünü deyə bilmək cəsarəti təşkil edir. Janr etibarilə məqalat adlandırılan həmin əsərin məzmununda belə bir mahiyyət var: Padşahın casusu ona xəbər verir ki, bir qoca hər yerdə padşahı "zalım", "qaniçən" adlandırır. Padşah casusun bu xəbərindən əsəbiləşib qocanı qətlə yetirmək üçün saraya gətirtdirir. Padşahın azad sözə, azad fikrə qarşı qəzəbini yaxşı bilən Qoca azad fikir uğrunda ölümə belə hazır olduğunu bildirmək üçün əvvəlcədən kəfənini geyib saraya gəlir. Padşah belə hesab edir ki, onun qəddarlığını cəmiyyət içərisində car çəkən qoca onun bu qəzəbindən sonra əriyib muma dönəcək və əfv olunması üçün ona yalvaracaq. Lakin böyük şairin azad sözə bağlı estetik idealı qarşısında

qoca öz cəsarətinin müstəqil düşüncəyə bağlılığını daha kəskin ifadə edir və onu düz və dəqiq göstərən aynanı (bizim konteksdə azad sözü) sındırmaqdansa, nöqsanları düzəltməyi məsləhət görür.

Əslində qocanın bu müdrik məsləhəti yazılı ədəbiyyatımızın böyük ustadlarından olan Nizami Gəncəvinin estetik idealıdır.

Şairin əqidəsincə, doğru söz, azad fikir o qədər müqəddəsdir ki, onun qarşısında ən zalım tiran belə bəzən tab gətirə bilməyib təslim olur. Bu səhnədə də qocanın azad söz demək cəsarəti hiddətlənmiş padşahın qəzəbini söndürür və padşah o gündən aqil bir hökmdara çevrilir.

Bu kiçik məqalatda padşahı despot dövlət başçısı, casusu qatı senzor, qocanı azad söz mücahidi kimi qəbul etsək, əsəri və onun müəllifini Azərbaycan bədii fikir tarixində söz azadlığının ilk mücahidi kimi qəbul edə bilərik.

Diqqətlə baxdıqda Nizaminin "Sirlər xəzinəsi"ndəki məqalatlarının hamısında bu günümüz üçün də müasir olan publisistik məqam bolluğu var. "Zalım padşahla Zahidin dastanı" xarakteri etibarilə poeziyadan çox publisistikaya istiqaməti ilə maraq doğurur.

Publisistika tədqiqatçısı Famil Mehdi doğru qeyd edir ki, "həyat hadisələrinə azad publisistik münasibət əlamətlərinə qədim yazılı ədəbiyyatımızda – Nizami, Xaqani, Nəsimi, Füzuli kimi ölməz söz ustalarının əsərlərində də rast gəlirik" [4, 40]. "Bütün dövrlərdə böyük sənətkarlar bu problemə müraciət etmiş və onu öz dövrünün və öz mühitinin konkret cizgiləri ilə qələmə almışlar" [7]. Lakin bütün bunlar mətbuataqədərki dövrün ideallarıdır və istər dünya ədəbi fikir tarixində, istərsə də Azərbaycan ədəbi mühitində azad, demokratik mətbuat ideyası mətbuatın özünün tirajlanma formatının meydana gəlməsindən sonra yaranmışdır. Əlbəttə, bu mənada nəinki ideyanı, habelə onun gerçəkləşməsi prosesini milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin fəaliyyətində görürük. Milləti maarifləndirmək yolunda müxtəlif üsullara əl atan bu böyük ziyalı, nəhayət ki, qəzet çıxarmağı üstün tutur. H.Zərdabi xalqı elmə, maarifə çağırır və bunun üçün "qəzet çıxarmaqdan savayı bir qeyri əlac" görmürdü. O, "kağız üstə yazılmış doğru sözlərin" qapı-pəncərələrdən iman mənzillərinə çatması" arzusu ilə deyirdi: "Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar" [7]. Beləliklə, bu ideya "Əkinçi" qəzetini meydana gətirdi. İlk milli mətbuat nümunəsinin işıq üzü görməsilə Azərbaycan mətbuatının inkişaf prosesi başladı. Bu inkişaf prosesinin əsas mahiyyəti azad söz və onun tirajlanması ilə bağlıdır. Azərbaycan mətbuatı tarixinin kamil tədqiqatçılarından olan professor Şamil Vəliyev doğru göstərir ki, azad "mətbuatın ictimai-mədəni faydasını, onun sosial-siyasi əhəmiyyətini qiymətləndirən H.Zərdabinin yaradıcılıq ənənələrini davam və inkişaf etdirən Azərbaycan mühərrirləri həm də bu vətənpərvər mütəfəkkirin ideyalarını, azad sözə dair elmi-nəzəri görüşlərini yeni dövrə uyğunlaşdırdılar, təkmilləşdirdilər, milli mətbuatşünaslığın yaranmasına nail oldular" [6, 4]. Və daha maraqlısı budur ki, məqalə müəllifi belə bir dəqiq fikir irəli sürür: "Həmin elmi-nəzəri düşüncə təcrübəsi (klassik jurnalistikamızdakı

azad söz ideyası – E.R.) tarixi həqiqətlər arsenalı və milli yaddaş aydınlığı çağdaş Azərbaycan medialogiyasının qaynaqları kimi mühüm əhəmiyyət daşıyır, onun metodoloji əsaslarını müəyyənləşdirmək üçün istinad nöqtəsi rolunu oynayır" [6, 4-5]. Həqiqətən də bu gün təkcə M.F.Axundov məktəbini azad, demokratik fikir uğrunda mübarizə xətti kimi qəbul etmək olar. Məsələn, o özünün "Kəmalüddövlə məktubları" adlı traktatında dövrünün Şərq cəmiyyətinin başlıca problemlərini hərtərəfli təhlil edərək müsəlman ölkələri həyatının bütün sahələrini bürümüş böhrandan çıxış yolunu demokratik bir cəsarətlə açıb göstərməyə çalışmışdır" [2, 113]. M.F.Axundov özünün "İstibdada və mövhumata qarşı" əsərində deyirdi: "... cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə ... bu halda onlar dəyirman atlarına bənzərlər" [2, 114]. Böyük Zərdabinin və onun müasiri M.Axundovun demokratik mətbuat ideyaları hədər getmədi. XX əsrin başlanğıcında artıq M.Şahtaxtlı, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə və digər bir çoxları nəinki mətbuat orqanları yaratmaq, həm də demokratik mətbuatı meydana çıxarmaq arzularını ifadə etdilər və bir sıra hallarda bunu gerçəkləşdirə bildilər. Məsələn, "Həyat" qəzetinin proqram məqaləsi onun həm də demokratik meyllərindən xəbər verirdi. "Qəzetəmizin məsləki" adlı bu proqram məqaləsinin müəllifi Əli bəy Hüseynzadə yazırdı: "Qəzetənin əhəmiyyəti bir cəmiyyət, ya millət üçün o qədər aşkardır ki, bundan bəhs etməyə lüzum yoxdur. Qərbdə məcmui dörd-beş milyon əhalidən ibarət kiçik məmləkətlərdə üç-dörd yüzə qədər müxtəlif qəzetələrin yüz minlərcə nüsxələrlə intişarına baxılırsa, əqvami-mütəməddinə üçün qəzetənin dəxi nani-əziz kibi ehtiyacati-bəşəriyyənin ən zərurilərindən ədd olunduğu anlaşılır. Bu kibi məmləkətlərdə insanlar qəzetə qiraətini etiyad edə-edə (təbir cayizsə) bir növ qəzetə tiryəkisi oluyorlar. Hər sabah və axşam qəzet oxumamışsa çay, qəhvə içməyən adamlar kibi rahatsız olurlar. Qəzetə insan üçün adətən munis bir yoldaş, xeyirxah bir müəllim nafe bir məktəb, hətta fərəhfəza xoş bir tamaşaxana kibidir. Zəlalətdə qalanlara doğru yolu, hidayət yolunu göstərər" [1, 65].

Göründüyü kimi, Ə.Hüseynzadə hətta qəzetin informasiya siyasətinə də toxunur və qəzeti hadisələrə doğru münasibətə çağırır.

Bir müddət keçəcək, Azərbaycan ziyalıları azad və demokratik mətbuatın vəzifəsini, ictimai həyatda yerini göstərəcəklər. M.Ə.Rəsulzadənin bu gün hər kəsə məlum "Mətbuat azadlığı" məqaləsi bu problemi birbaşa ortaya qoyan və onun nəzəri məsələlərini həll edən qiymətli əsərdir. M.Ə.Rəsulzadə öz məqaləsində birbaşa mətləbə keçərək yazır: "O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun. Bu məsələni lazımınca dərk etmək və anlamaq istəyiriksə, onda gərək mətbuat tarixini oxuyub araşdıraq, onun vəzifələrini və müxtəlif vəziyyətlərini təhlil edək" [1, 271].

M.Ə.Rəsulzadə bu barədə öz fikirlərini inkişaf etdirərək yazırdı: "Mətbuat millət fərdlərinin, jurnalistlərin şəxsi fikirlərini cəmiyyətə çatdırandır. O, dövrünün mədəniyyət carçısıdır, öz dövrü, başqa dövrlər barədə lazımi məlumatı camaata çatdıra bilir. Bir və ya bir neçə nəfərin yeni fikirləri min

nüsxələrlə çap olunan mətbuat vasitəsilə ictimaiyyətin malı edilir, yayılır" [1, 273]. Məqalə müəllifinin bu fikirləri tirajlanan sözün qüdrəti, bu məqamda qəzetin nələrə qadir olduğunu ifadə baxımından da çox maraqlıdır.

M.Ə.Rəsulzadənin bu məqaləsi Azərbaycanın yeni müstəqillik uğrundakı mübarizə məqamında bir məktəb kimi jurnalistlərimizə öyrədirdi ki, "Mətbuat bir müəllim vəzifəsini yerinə yetirir. O, xalqın tərbiyəçisidir. O, mənəviyyatdan uzaq ola bilməz. O, təmiz, saf olmalı, əxlaqdan kənara çıxmamalıdır, kənara çıxsa, öz mənafe və məqsədinə xidmət edə bilməz. Aşağı səviyyəli yazı, söyüş, abırı aparan yazı, fitnə - fəsad törədən yazılar - bax bu üç əxlaqdankənar çıxışlar mətbuatı hörmətdən salar, əxlaqdan məhrum edər" [1, 275].

Bu sözlər bizim günlərimizdə o qədər müasir səslənir ki, adam heyrətlənməyə bilmir.

Azad, demokratik mətbuat ideyası, bu ideyanın millət tərəfindən dərk edilməsi problemi Üzeyir bəyi də daim düşündürmüş və hətta özünün bu barədə bir yazısını "Hürriyyəti-mətbuat" adlandırmışdır. Bu məqalə azad və demokratik mətbuatın nəzəri məsələlərini, demokratik mətbuatın nəyə xidmət etdiyini dəqiqliklə ifadə etmişdir.

Üzeyir Hacıbəyli nəinki demokratik mətbuatın nəzəri əsaslarını işləmiş, habelə bir sıra qəzetlərin bu sahədə fəaliyyəti haqqında təqdiri və tənqidi əsərlər yazmışdır. Böyük ədib və jurnalistin "Tərcüman" nə deyir, nə söyləyir?", "Müəllimlərimiz və mətbuat", "Qəzet oxuyan", "Hürriyyəti-kəlam", "Tərcüman"ı oxuyanda", "Rusiyada mətbuat", "Bir qədər qəzetçilik dərsi" və s. kimi məqalələri dövrün mətbuat mənzərəsini yaratmaqla bərabər, demokratik jurnalistikanın ictimai rolunu təhlil etmişdir.

Bu tip publisistika bir yaradıcılıq məktəbidir. «Yaradıcılıq məktəbi» anlayışı isə özündə çox dərin elmi, nəzəri, praktik mahiyyət daşıyan, ifadə etdiyi sahənin öz ətrafında davamçılarını yetişdirən yaradıcılıq məzmunu kəsb edir. Tarixdən bizə tanış olan yaradıcılıq məktəbləri ədəbi-bədii, elmi sahədə özünə qədər görünməmiş orijinal keyfiyyətə malik məqamlarla şərtlənir. Məktəb o qədər orijinal, o qədər dəyərli, o qədər praktik olmalıdır ki, onun yüzlərlə, bəlkə minlərlə şagirdi, deməli, davamçısı olsun. Bir də biz həmişə ədəbi məktəb deyəndə onun tarixi sınaqlardan çıxmasını, zamana, epoxaya sinə gərərək sabaha ünvanladığını da mütləq nəzərə alırıq.

Azərbaycan demokratik fikrinin daşıyıcısı və demokratik mətbuat ideyasını gerçəkləşdirmək yolunda mübarizəsini həmişə önə çəkmiş Nəriman Nərimanov "Dərdlərimizin əlacı" [1, 386] məqaləsində milli məktəb, milli din, milli dil və məsələlərlə birgə milli mətbuat problemini də dilə gətirərək yazır: "... Məsləkimizə müvafiq təsəvvürümüzü zəmanənin böylə bir vaxtında mümkün olduqca aşkar yazmışdıq... və fikrimizin xülasəsi də bu idi: bir millət özünü tanımayınca hüququnu düşünməz. Tanımaq üçün də milli dil, milli məktəb, milli mətbuat, milli ədəbiyyat lazımdır. Bunların da meydana gəlməsi və tərəqqisi bizim üçün hürriyyətə bağlıdır. Bu hürriyyət isə tamamilə olmasa da 1905-ci ildən cüzi verilibdir. Məsələn, 1905-ci ilədək Rusiyada 20 milyon

müsəlmanın bir "Tərcüman" qəzetəsi var idi. Deмək də olmazdı ki, 20 milyon müsəlman tək bir balaca "Tərcüman" qəzetəsinə kifayət edir. Xeyr! Müsəlmanlardan qəzetə vermək fikrində çox adam var idi, fəqət izn vermirdilər. Qəzetəyə izn vermək məsələsi Petroqradda nazirdən asılı bir məsələ idi. Buradan da hamıya bir cavab gəlirdi: bəli, müsəlmanlar üçün, əlbəttə, qəzetə lazımdır. Fəqət ministrin gizlin sirkulyarına görə türk dilində qəzetəyə izn yoxdur deyirdilər. İndi isə, yəni 1905-ci ildən qəzetəyə izn almaq üçün Petroqrada və ministrə müraciət etmək lazım gəlmir. Qubernator və ya qradanaçalnik bu izni çox asanlıq ilə verirlər. Gözümüzün qabağında gündə bir qəzetə batır, biri çıxır" [1, 388].

Bu fikirlərdə demokratik, müstəqil, dəqiq informasiya verən mətbuata ehtiyac problemi ortaya qoyulmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə bu dövrə qədər demokratik mətbuat uğrunda mübarizə qələbə çaldı və Azərbaycanda M.Ə.Rəsulzadənin arzuladığı "azad mətbuat" ideyası gerçəkləşdi. AXC Milli Məclisi bu günümüz üçün də tarixi təcrübə hesab etdiyimiz "Mətbuat Nizamnaməsi"ni qəbul etdi. Bu Nizamnamə Azərbaycanın ictimai fikir tarixində formalaşmış demokratik mətbuat ideyasına hüquqi təminat verdi. "Mətbuat Haqqında Nizamnamə" Azərbaycan jurnalistikası tarixində ilk qanunverici akt olmuşdur". Belə bir "hüquqi bazanın yaradılması jurnalistikanın inkişafına təkan verdi" [5, 225].

Bütün xalqlar kimi, Azərbaycan xalqı da həmişə söz, mətbuat azadlığına can atmışdır. Azərbaycan klassik ədəbiyyatının azad söz uğrunda mübarizəsi yönündə yüzlərlə fakta söykənmək olar. XIX əsrin ortalarında dünya xalqlarında mətbuatın önəmli rolunu görən ziyalılarımız - M.F.Axundov, B.Zərdabi, XX əsrin əvvəllərində C.Məmmədquluzadə, F.Köçərli, N.Nərimanov, M.Ə.Rəsulzadə və digər onlarca ictimai xadim mətbuat, söz azadlığını cəmiyyətin inkişafında başlıca şərt hesab etdilər. Azərbaycanın çar senzurası şəraitində fəaliyyət göstərən jurnalistlərinin əzab-əziyyəti, işgəncələri barədə tarixin faktları çoxdur. "Əkinçi" qəzetinin nəşrinə icazənin çətinliyi, onun ömrünün bu qədər azlığı, "Molla Nəsrəddin" jurnalının bir neçə dəfə məhkəməyə cəlb edilməsi, 1910-cu illərdə qəzetlərə total dövlət hücumları və s. faktlar buna misaldır. Azərbaycan jurnalistlərinin əsərləri rus senzurasının xüsusi nəzarətində olmuşdur. Milli müstəqillik uğrunda mübarizənin Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələnməsi jurnalistlərin də müstəqilliyinə, azad mətbuata şərait yaratmışdı. Azərbaycan Xalq Cümhuriyyəti söz və mətbuat azadlığını təmin etmiş və mətbuatın hüquqi əsaslarının ifadəsi kimi 1919-cu il oktyabrın 30-da parlamentdə "Mətbuat nizamnaməsi"ni təsdiqləmişdir.

1920-ci ildə müstəqil Azərbaycan dövlətinin süqutu ilə Azərbaycan mətbuatı yenidən Rusiyanın tabeliyinə keçir. Sovet jurnalistikası dövrü başlayır. Ən qatı senzura qaydalarını həyata keçirən sovet hökuməti 1930-cu illərin ağır repressiyasını mətbuata da güclü tətbiq etmişdir. Mətbuatın özəl sektoru birdəfəlik qadağan edilmiş, kütləvi informasiya vasitələri tamamilə yalnız dövlətin və kommunist partiyasının inhisarında olmuşdur.

1980-ci illərin sonu – 1990-cı illərin əvvəlləri Azərbaycan milli azadlıq hərəkatı, ilk növbədə, mətbuatın dəstəyi ilə ortaya çıxmış və bu mübarizə Azərbaycanın müstəqilliyi ilə nəticələnmişdir. Müstəqilliyin başlanğıc nöqtəsində bazar münasibətlərinin ilk işartısı - özəl sektorun yaranması da ilk olaraq özünü mətbuatda göstərmişdir. İlk özəl qəzetlər, ilk kommersiya TV və radio kanalları meydana gəlmişdir. “80-ci illərin sonunda 70 il ərzində ilk dəfə olaraq qeyri-hökumət ümummilli qəzetlər meydana gəldi və növbəti onillik artıq ölkədə qəzet bumuna çevrildi” [8, 3]. Siyasi partiyalar, qeyri-formal təşkilatlar, ayrı-ayrı təsisçilər öz qəzetlərini, jurnallarını, telekanallarını yaratdılar. Dövlət aparatı mətbuatın demokratikləşmə istiqamətinin qarşısını ala bilmədi. 1992-ci ildə “KİV haqqında Azərbaycan Respublikasının Qanunu” qəbul edildi. 1998-ci ildə sovet dövründən miras qalan senzura prezident fərmanı ilə aradan qaldırıldı. 1999-cu il dekabrın 7-də Milli Məclis KİV haqqında yeni qanun qəbul etdi.

Beləliklə, Azərbaycanda KİV-in hüquqi əsasları yarandı.

“KİV haqqında Azərbaycan Respublikasının Qanunu” Azərbaycan Konstitusiyasına əsaslanır. Demokratik ölkələrin təcrübəsinə əsaslanaraq mətbuat Azərbaycanda Konstitusiya ilə dövlət tərəfindən öz hüquqlarına təminat alıb.

Beləliklə, bu gün müstəqil Azərbaycanda sələflərimizin arzuladığı demokratik mətbuat ideyası tamamilə gerçəkləşmiş, bunun da nəticəsində Azərbaycan xalqı demokratik dəyərlərə yiyələnmiş, ölkəmizdə hüquqi, vətəndaş cəmiyyəti formalaşmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan mətbuat tarixi antologiyası. Bakı: Elm və təhsil, I c., 2010, 440 s.
2. Demokratiya: Gedilәsi uzun bir yol: demokratiya və antidemokratiya antologiyası.Tərtib edəni və red. H.Hacızadə; Azərbaycan türkcəsinə çevirənlər: Akif Nağı və b. Bakı: Əbilov, Zeynalov və oğulları, 2001, 446 s.
3. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Bakı: Azərbaycan Universiteti, 2007, 520 s.
4. Mehdi F. Bədii publisistika. Bakı: Maarif, 1982, 294 s.
5. Rüstəmov A. Jurnalistika. Bakı: UniPrint, 2012, 308 s.
6. Vəliyev Ş. Varis olmağı bacarmalıyıq. “Azərbaycan mətbuat tarixi antologiyası”na giriş sözü. Bakı: Elm və Təhsil, I c., 2010, 440 s.
7. Zərdabi H. Rusiyada əvvəlimci türk qəzetəsi. “Həyat” qəzeti, 1905, 28 dekabr, № 129, 1906, 3 yanvar, № 2
8. СМИ Азербайджана (1999). “Yeni nəsil jurnalistlər birliyinin nəşri”. Bakı, 1999, 263 s.


## ДЕМОКРАТИЧЕСКАЯ ПРЕССА В КОНТЕКСТЕ ОБЩЕСТВЕННОЙ МЫСЛИ В АЗЕРБАЙДЖАНЕ


**Э.Ф.РОВШАНОВА**


**РЕЗЮМЕ**


В статье подвергаются анализу факторы, обуславливающие формирование идеи демократической печати в Азербайджане, пути реализации этой идеи. В ней, в частно-

сти, проводится анализ вопросов демократической печати, поставленные в трудах общественных деятелей и классических публицистов Азербайджана. Тем временем широко говорится на эту тему в трудах Г.Зардаби, М.Ф.Ахундова, интеллигенции XX века-М.Э.Расулзаде, У.Гаджибейли и других общественных деятелей. В статье также отдельно говорится об идее демократической печати, проявляющейся специфическим образом с конца 1980-х годов и реализуемой с первых времен нашей независимости.

**Ключевые слова:** демократическая печать, национальная пресса, свободное слово, контекст, публицистика

## THE DEMOCRATIC PRESS IN AZERBAIJAN IN THE CONTEXT OF PUBLIC OPINION

**E.F.ROVSHANOVA**

**SUMMARY**

The article deals with the factors which stipulate the idea of democratic press formation, the ways of realizing this idea. Especially, the democratic press issues put forward in the works of Azerbaijani public figures and classic publicists are analyzed in the article. An extensive discussion is held around the works of public figures such as H.Zardabi, M.F.Akhundov, intellectuals of the beginning of the XX century-M.A.Rasulzadeh, U.Hajibayli etc. A separate discussion is conducted in the article around a democratic press idea emerged in the late 1980s in a special way and realized in the early years of independence.

**Key words:** democratic press, national press, free expression, context, journalism.